**A Z Ə R B A Y C A N   R E S P U B L İ K A S I**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I N D A N   Ç I X A R I Ş**

---

№ 30 «04» Mart 2024-cü il

**Mənzil növbəsinin yaşayış yeri üzrə Binəqədi Rayon İcra Hakimiyyətinə keçirilməsi barədə**

Vətəndaş Hacızadə Abdulla Qoşqar oğlunun qanuni nümayəndəsi Hacıyeva Aidə Əmiraslan qızı 02.02.2024-cü il tarixli 5-10/1-H-25-068/2024 saylı ərizə ilə Binəqədi Rayon İcra Hakimiyyətinə müraciət edərək vətəndaş A.Hacızadənin yaşayış yerini dəyişməsi ilə əlaqədar mənzil növbəsinin yaşayış yeri üzrə Binəqədi Rayon İcra Hakimiyyətinə keçirilməsinə köməklik göstərilməsini xahiş etmişdir.

Təqdim olunmuş sənədlərdən müəyyən olunmuşdur ki, anadangəlmə əlil vətəndaş Hacızadə Abdulla Qoşqar oğlunun qanuni nümayəndəsi Hacıyeva Aidə Əmiraslan qızı şəhid ailəsi üzvünün anası kimi mənzil sahəsinə ehtiyacı olan şəxs qismində növbəyə götürülməsi barədə Mingəçevir şəhəri ərazisində mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan vətəndaşların qeydiyyata götürülməsi və yaşayış sahələrinin bölüşdürülməsi komissiyanın 11.03.2021-ci il tarixli 8 nömrəli protokolu Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının 23.05.2023-cü il tarixli 66 saylı sərəncamı ilə təsdiq olunmuşdur

Vətəndaş Hacızadə Abdulla Qoşqar oğlu hal-hazırda ailə tərkibi 3 nəfər olmaqla (özü, anası və digər şəxs) başqasına məxsus olan Bakı şəhəri, Binəqədi rayonu, Mir Cəlal küçəsi, ev 145, mənzil 110 ünvanında qeydiyyatdadır.

Vətəndaş Hacızadə Abdulla Qoşqar oğlu və qanuni nümayəndəsi (anası) Hacıyeva Aidə Əmiraslan qızı yuxarıda qeyd olunan ünvanda qeydiyyatda olduğundan Mingəçevir şəhəri ərazisində mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan vətəndaşların mənzil növbəsindən Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının 13.02.2024-cü il tarixli 18 saylı Sərəncamı ilə çıxarılmış və mənzil-uçot sənədləri yeni yaşayış yeri üzrə Binəqədi Rayon İcra Hakimiyyətinə göndərilmişdir.

Qeyd olunanlara və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.9.6-cı və 6.8-ci bəndlərinə əsaslanaraq

**QƏRARA ALIRAM:**

1. Şəhid ailəsi vətəndaş Hacızadə Abdulla Qoşqar oğlunun qanuni nümayəndəsi (anası) Hacıyeva Aidə Əmiraslan qızının Mingəçevir Şəhər İcra Hakimiyyətində olan mənzil növbəsi yaşayış yeri üzrə Binəqədi Rayon İcra Hakimiyyətinə keçirilsin və vətəndaş Hacıyeva Aidə Əmiraslan qızı ailə tərkibi 2

nəfər olmaqla (özü və oğlu-Hacızadə Abdulla Qoşqar oğlu) 23.05.2023-cü il tarixindən şəhid ailəsi üzvünün anası kimi güzəştli əsaslarla mənzil növbəsində hesab olunsun.

2.Vətəndaş Hacızadə Abdulla Qoşqar oğlunun qanuni nümayəndəsi (anası) Hacıyeva Aidə Əmiraslan qızının mənzil növbəsi Binəqədi Rayon İcra Hakimiyyətində mövcud olan güzəştli əsaslarla yaşayış sahəsilə təmin olunacaq ailələrin siyahısına daxil edilsin.

3.Sərəncamın surəti məlumat üçün vətəndaş Hacızadə Abdulla Qoşqar oğlunun qanuni nümayəndəsi (anası) Hacıyeva Aidə Əmiraslan qızına göndərilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN